# Sumqayıtda "Ekoloji təhlükəsizlik və yaşıl dünya" adlı işgüzar konfrans keçirilib



**Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə əlaqədar həyata keçirilən silsilə tədbirlərin davamı olaraq, aprelin 16-da Sumqayıtda "Ekoloji təhlükəsizlik və yaşıl dünya" adlı işgüzar konfrans keçirilib.**

Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Sumqayıt şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib.

Daha sonra isə iştirakçılar "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində şəhərdə yerləşən Heydər Əliyev adına parkda ağaclar əkiblər.

Tədbir başlamazdan öncə Ulu Öndər Heydər Əliyev və vətənimizin azadlığı uğrunda canlarını qurban verən şəhidlərimizin əziz xatirəsi konfrans iştirakçıları tərəfindən birdəqiqəlik sükutla yad olunub, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən Baş Prokurorluğun idarə rəisi Vüqar Əliyev müasir Azərbaycan dövlətinin memarı və qurucusu, dahi lider Heydər Əliyevin rəhbərliyi ilə ölkə ərazisində ekoloji mühitin sağlamlaşdırılması, ətraf mühitin mühafizəsi, eləcə də paytaxtda və respublikamızın bütün bölgələrində yaşıllaşdırma işinə xüsusi önəm verildiyini qeyd edib.

Konfrans zamanı çıxış edən Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfə verdiyini, aparılan kompleks tədbirlərin Sumqayıt şəhəri ərazisində də davam etdirildiyini qeyd edib.

Dahi lider Heydər Əliyevin ekoloji siyasəti barədə danışan Sumqayıt şəhər prokuroru Mürvət Həsənov uğurlu siyasətin bu gün də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən davam etdirildiyini bildirib.

Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov çıxış zamanı prokurorluq orqanları tərəfindən digər dövlət qurumları ilə birgə respublika ərazisində ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində kompleks işlərin həyata keçirildiyini vurğulayıb.

Konfransda həmçinin Ombudsman Aparatının sektor müdiri Müqalib Mahmudov, aqrar elmlər üzrə fəlsəfə doktoru Tünzalə Babayeva və digərləri aktual mövzular üzrə çıxış ediblər.

Daha sonra dövlət qurumları ilə qeyri-hökumət təşkilatları və media arasında "Yaşıl dünya naminə" səmərəli müzakirələr aparılıb, təkliflər ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycan.- 2024.- 17 aprel, № 76.- S. 7.